# “Ədliyyə orqanlarında qulluqkeçmə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

“Ədliyyə orqanlarında qulluqkeçmə haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, N 7, maddə 586; 2007, N 1, maddə 1, N 8, maddə 756, N 11, maddələr 1078, 1081; 2008, N 3, maddə 155, N 6, maddə 481, N 8, maddələr 694, 710; 2009, N 6, maddə 399, N 11, maddə 878; 2010, N 3, maddə 171, N 4, maddə 273, N 11, maddə 944; 2011, N 2, maddələr 71, 72; 2012, N 11, maddə 1040; 2015, N 10, maddə 1089) aşağıdakı dəyişikliklər edilsin:

1. 19.3-cü maddədə “Verilmiş şikayət” sözləri “Bu qanunun 19.4-cü maddəsinə əsasən intizam tənbehinin tətbiq edilməsinə dair qərarın icrasının dayandırılması barədə qərar qəbul edildiyi hallar istisna olmaqla, verilmiş şikayət” sözləri ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 19.4-cü maddə əlavə edilsin:

“19.4. Şikayət verildiyi hallarda, barəsində şikayət olunan intizam tənbehinin tətbiq edilməsinə dair qərarın icrasının dayandırılması ilə bağlı məsələyə, maraqlı şəxsin ərizəsinə əsasən və ya xidməti vəzifəsinə görə şikayət instansiyasının öz təşəbbüsü ilə, şikayət instansiyası tərəfindən dərhal baxılır və bu barədə müvafiq qərar qəbul edilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 may 2016-cı il*